# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 293** **Bakı şəhəri, 5 oktyabr 2021-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Tenderin nəticələri haqqında tender komissiyasının yekun protokolunun nümunəsinin təsdiq edilməsi barədə" 2002-ci il 2 avqust tarixli 124 nömrəli, "Mallar (işlər və xidmətlər) üzrə satınalma müqaviləsinin nümunəsi"nin təsdiq edilməsi haqqında" 2003-cü il 28 fevral tarixli 34 nömrəli və "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 422-ci maddəsində nəzərdə tutulmuş halların satınalma müqaviləsinə təsirinin qiymətləndirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2019-cu il 18 mart tarixli 107 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 27 may tarixli 330-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2002-ci il 29 yanvar tarixli 668 nömrəli Fərmanında, 2019-cu il 16 aprel tarixli 647 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1376 nömrəli Fərmanının 2.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 2 avqust tarixli 124 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 535; 2016, № 4, maddə 831; 2019, № 4, maddə 746) ilə təsdiq edilmiş "Tenderin nəticələri haqqında tender komissiyasının yekun protokolunun nümunəsi"nin 10-cu hissəsinin "a" bəndinə və 12-ci hissəsinə ismin müvafiq hallarında "uyğunluğu" sözündən sonra "əvvəlcədən" sözü əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 28 fevral tarixli 34 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 2, maddə 149; 2019, № 4, maddə 746; 2021, № 5, maddə 520) ilə təsdiq edilmiş "Mallar (işlər və xidmətlər) üzrə satınalma müqaviləsinin nümunəsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5.5-ci bənddə "ona aid olan icazələrin və razılaşmaların alınmasını təmin edir" sözləri "müqavilənin icrasına başlanılması üçün müvafiq dövlət orqanlarından (qurumlarından) icazələrin ("Dövlət satın-almaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.2.7-ci maddə-sinin tələbləri nəzərə alınmaqla) alınması tələb olunduğu təqdirdə, Sifarişçi belə icazələrin müqavilənin icrasına başlanılana qədər əldə olunmasını təmin edir" sözləri ilə əvəz edilsin;

2.2. 14.1-ci bəndin birinci abzasına aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

"Müqavilənin yerinə yetirilməsinin təminatının qüvvədəolma müddəti satınalma müqaviləsinin yerinə yetirilməsi müddətindən (tələb olunduğu halda texniki təminat müddəti daxil olmaqla) 30 bank günü çox olmalıdır.";

2.3. 14.2-ci bənd aşağıdakı redaksiyada verilsin;

"14.2. Müqavilə Sifarişçi və İcraçı tərəfindən imzalandığı andan qüvvəyə minir. Tenderin əsas şərtlər toplusunda müqavilənin Sifarişçinin yuxarı idarəetmə orqanı tərəfindən təsdiq olunması nəzərdə tutulmuşdursa, müqavilə həmin orqanın təsdiqinədək qüvvəyə minmir. Yuxarı idarəetmə orqanı təqdim olunmuş satınalma müqaviləsini 5 bank günündən gec olmayaraq təsdiq edir.".

2.4. 24.2-ci bəndin üçüncü abzasının birinci cümləsində "10 gün" sözləri "sonrakı 10 bank günü" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 18 mart tarixli 107 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 541) ilə təsdiq edilmiş "Azərbaycan Respub-likası Mülki Məcəlləsinin 422-ci maddəsində nəzərdə tutulmuş halların satınalma müqaviləsinə təsirinin qiymətləndirilməsi Qaydası"nın 2.3-cü bəndində "20" rəqəmləri "10" rəqəmləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***